# Azərbaycan Prezidenti "Qarabağ" Futbol Klubunu təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında "Qarabağ" Futbol Klubunun qələbəsi ilə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:**

"Danimarka çempionu "Kopenhagen" Futbol Klubu üzərində inamlı qələbə qazanması münasibətilə "Qarabağ" Futbol Klubunu, bütün Azərbaycan futbol ictimaiyyətini ürəkdən təbrik edirəm.

Planetin ən güclü klub turnirinin əsas mərhələsində 2 oyunda 2 parlaq qələbə əldə edən "Qarabağ" dünya futbolunun nəhəngləri ilə ilk pillələri bölüşməklə xalqımızı qürurlandırmaqda davam edir".




Azərbaycan.-2025.- 2 oktyabr (№211).- S.1.